**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**
**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**

**21 Mart Beynəlxalq Poeziya günü ilə əlaqədar**



# “BƏNZƏRSİZ POEZİYA ”

## (metodiki vəsait)

**B A K I – 2015**

# TƏRTİBÇİDƏN



1999-cu ildə YUNESKO-nun 30-cu iclasında 21 mart beynəlxalq poeziya günü elan olundu. Bu hadisə xalqımız üçün ikiqat bayrama çevrildi. Çünki ruhun musiqisi adlandırılan bəşəri poeziyanın ritmik notları ilə baharı, çiçəklənməyə hazırlaşan ecazkar təbiəti, saflıq və birlik rəmzi olan əziz Novruzu salamlamaq doğrudan da əsl səadətdir. Səadətdir, həm də ona görə ki, Odlar Yurdumuz, iqtisadi sərvəti ilə zəngin olan anamız Azərbaycan həm də mənəvi sərvəti ilə məşhurdur və əsrlərdən bəri də məşhur olub. Xalqımız şeriyyətə və mədəniyyətə misilsiz töhvələr, nadir söz ustadları, böyük sənətkarlar bəxş edib. Odur ki, Azərbaycanın ürəyi həm də şeirlə, poeziya ilə bərabər döyünüb. Zaman ötdükcə, böyük Səməd Vurğunumuz da məmləkətimizi şeir, sənət ocağı kimi sevdirdi. Bu ocağın neçə-neçə unudulmaz söz sahiblərindən biri olan sevimli Şəhriyar qəlbini, ruhunu şeirə, sözə, poeziyaya bağışlayıb dedi:

Şeir mədəniyyət, incəsənətdir,
Incə ruh, incə zövq, incə sənətdir.
O da musiqi tək qəlbin səsidir,
Həyatın ən böyük möcüzəsidir.

Həyatın ən böyük möcüzəsinə, şeirə rəsmi tərif versək, əlbəttə, deməliyik ki, şeir - mənzum söz sənətidir. Nəsrdən fərqli olaraq, fikrin vəznli, obrazlı, ritmik, qafiyəli ifadəsidir. Fransız yazıçısı Anatol Frans haqlı olaraq qeyd edib ki, şeirlə insan ruhu arasında qədim bir ünsiyyət var. Buna görə də insanın sevincli və kədərli anlarında şeir həmişə onunladır. Bu məqamlarda Livan yazıçısı və rəssamı Xəlil Cübranın sözləri yada düşür: "Şeir qanı axan yaranın və ya gülümsəyən dodaqların nəğməsidir". Rus şairi, Nobel mükafatı laureatı İosif Brodski səmimi şəkildə bildirib ki, poeziya ən yaxşı sözlərin ən yaxşı düzümü deyil, poeziya dilin adi mövcudluq formasıdır.İslam dininin böyük yaradıcısı, müsəlman aləminin fəxri olan Məhəmməd Peyğəmbər hələ neçə əsr bundan qabaq daim insanlara tövsiyə edib ki, şeir əzbərləyin, çünki şeir dili düzəldir, danışığı, nitqi gözəlləşdirir. Zaman-zaman dahilər "Poeziya sözlərin, ruhun musiqisidir. Poeziya həyatın çırağıdır" - deyə bu həyati varlığa yüksək dəyər verib.

Qeyd etdiyimiz kimi, Azərbaycan poeziyasının qüdrəti qədimlərdən şölələnir. Bu barədə mənbələrdə kifayət qədər sübutlar, dəlillər var.

Əziz kitabxanaçılar, elə bu dəlil və subutlara əsaslanaraq Beynəlxalq Poeziya Günü ilə əlaqədar hazırladığımız vəsait ümidvaram ki, hər bir kitabxanacının və oxucunun istifadə edə biləcəyi vəsait olacaq.

**Poeziya hər şeydən əvvəl, həyat, ondan sonra isə incəsənətdir.**

**İnsanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, insanlığın mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.**

**Heydər Əliyev**

**Ulu öndər**

1999-cu ildə YUNESKO-nun 30-cu iclasında 21 mart beynəlxalq poeziya günü elan olundu. Bu hadisə xalqımız üçün ikiqat bayrama çevrildi.

Poeziya ən qədim zamanlardan başlayaraq insanın mənəvi ehtiyacına çervilmiş, onun arzu və istəklərinin, duyğu və düşüncələrinin, sevinc və kədərinin poetik tərcümanı olmuşdur. Dünyanın bir sıra mədəni xalqlarının ədəbiyyatı kimi, bəşəriyyətin söz xəzinəsini zənginləşdirən Azərbaycan poeziyası da xalqımızın tarixi qədər qədim, mənəviyyatı qədər zəngindir. Azərbaycan şairləri, bütövlükdə, Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının inkişafına güclü təsir göstərmiş, özünəməxsus poeziya məktəbi yaratmışlar. Bu poeziya məktəbi nümayəndələrinin yaradıcılığında yüksək peşəkarlıq, sözün poetik imkanlarından istifadə bacarığı özünü daha aydın göstərmişdir.

Azərbaycanda poeziyanın ilk nümunələri şifahi xalq ədəbiyyatı zəminində formalaşmış bayatılar, holavarlar, sayaçı sözləri və digər mövsüm-mərasim nəğmələridir. Azərbaycan şifahi xalq ədəbiyyatı qədimlikdən, tarixdən xəbər verməklə yanaşı, Azərbaycan xalqının ruhundan süzülən mədəniyyətdir. Zəngin Azərbaycan şifahi xalq ədəbiyyatı dünyanın digər xalqlarının folkloru arasında özünəməxsus yer tutur. Hələ qədim zamanlardan Azərbaycan xalqı söz sənətinin ilk nümunələrini yaratmış, əsasən, şifahi formada olan bu yaradıcılıq nümunələri poetik bədii təfəkkürün ilkin təzahürünə çevrilmişdir. Orta əsrlərdən başlayan yüksək mədəni inkişaf prosesi isə Azərbaycan poeziyasının yüksəlişində yeni bir mərhələnin başlanmasına səbəb olmuşdur; insana, onun daxili aləminə maraq güclənmişdir. Həmin dövrdə lirik-fəlsəfi düşüncələr, fərdi hisslərin təzahürü, ənənəyə çevrilmiş, şeir sənətimiz Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin timsalında yeni çalarlarla zənginləşmişdir. XIX əsrdən başlayaraq şeirlərdəki fəlsəfi mühakimələrin yerini müasirlik və real obrazların lirik təzahürü tutmuşdur. Molla Pənah Vaqifin, Molla Vəli Vidadinin, Qasim bəy Zakirin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin yaradıcılığı maarifçi-realist ruhda formalaşmışdır. Azərbaycanın müxtəlif bölgələrini əhatə edən "Gülüstan", "Əncüməni-şüəra", "Fövcül-füsəha", "Beytüs-Səfa", "Məcməüş-şüəra", "Divani-hikmət", "Məclisi-üns", "Məclisi-fəramuşan" kimi ədəbi məclislər ədəbi mühitin inkişafına öz təsirini göstərmişlər. Bunun da nəticəsində Azərbaycan ədəbiyyatının yüksəliş mərhələsi sayilan XX yüzil ədəbiyyatına keçid üçün möhkəm zəmin hazirlanmışdır.

Poetik fikrimizin Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Məmməd Araz, Bəxtiyar Vahabzadə, İslam Səfərli, Xəlil Rza, Cabir Novruz kimi görkəmli nümayəndələri öz yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatına yeni bir ruh vermiş, bir-birindən dəyərli poetik nümunələri ilə xalqımızın Azərbaycançılıq məfkurəsi, milli dəyərlər ətrafinda birləşməsində layiqli xidmətlər göstərmişlər. Söz və fikir azadlığı, siyasi düşüncə sərbəsliyi, plüralizm, milli istiqlal, ictimai ədalət uğrunda mübarizə xalqımızın istiqlal mübarizəsində, dövlət müstəqilliyimizin bərpa edilməsində əhəmiyyətli rol oynamışdır. Bu, şair və yazıçılarımızın yaradıcılığından daim qırmızı xətlə keçən vətənçilik, Azərbaycançılıq ideyasının, vətənpərvərlik ruhunun məntiqi nəticəsi idi.

Ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını əsas vəzifələr sirasına çəkmişdir. Ötən əsrin 70-ci illərindən başlayaraq ümumilli liderimizin rəhbərliyi ilə milli dəyərlərimizə qayğı, adət-ənənələrimizin qorunub yaşadılması, mədəniyyətimizin və incəsənətimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlər ədəbiyyatımızın, eləcə də poeziyamızın yeni çalar qazanmasına səbəb olmuşdur. Bu dövrdə repressiya qurbanlarının əsərlərinə "ikinci həyat" verilmiş, Azərbaycan ədəbiyyatının qorunması və təbliği məqsədilə ardıcıl tədbirlər görülmüş, şair və yazıçıların keçmiş ittifaq miqyasında yubileyləri keçirilmişdir. 1975-ci ilin oktyabrında keçirilən Azərbaycan ədəbiyyatı günlərində çıxış edən ümummilli liderimiz Heydər Əliyev şeriyyətin cəmiyyətdə böyük yerə malik olduğunu bildirərək demişdir: **"Tarix tələbkar idmançıdır. Hökmdarlar, saray əyanları unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur".**

Ulu öndərimiz himayəsi və qayğısı ilə ustad sənətkarların yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, dünya miqyasında tanıdılması, şifahi söz sənətimizin toplanılması, nəşri, tədqiqi və gələcək nəsillərə çatdırılması yönündə çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra yazıçı və şairlərimizə qaygı daha da artmış, bədii fikrin nadir hadisəsi olan poeziya xalqımızın mənəviyyatının ayrılmaz hissəsi kimi yeni inkişaf mərhələsinə yüksəlmişdir. "Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza, birinci növbədə, ədəbiyyatdan gəlir", - deyən ümumilli liderimiz müasir ədəbi prosesin inkişafı üçün hər cür şərait yaratmışdır. Bu gün də dövlətimizin hərtərəfli qayğısı ilə Azərbaycan şairləri ümumbəşəri mahiyyət daşıyan çoxşaxəli yaradıcılıqları ilə dünya bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirir, milli şeiriyyəti yüksəklərə qaldırırlar. Şairlərimizin bədii fikir salnaməsində parlaq səhifələr açan əsərləri insanların mənəvi kamilləşməsinə xidmət göstərir. Bu həm də ədəbiyyatın ən ali vəzifəsi kimi xüsusi əhəmiyyət kəsb edir. Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də Azərbaycan ədəbiyyatının inkişafına,

ədiblərin yaradıcılıq uğurlarının daha da artmasına xüsusi diqqət və qaygı göstərir. Dövlət başçısının ötən il imzaladığı sərəncamlarla Cəlil Məmmədquluzadənin 140, Hüseyn Cavidin 130, Məmməd Səid Ordubadinin 140, Mirzə Fətəli Axundzadənin 200, Mirzə Ələkbər Sabirin 150, Mirvarid Dilbazinin 100 illik yubileyləri ölkə səviyyəsində qeyd olunmuşdur. Həyata keçirilən tədbirlər Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan insanların xatirəsinə böyük ehtiram və diqqətin davamı kimi mühüm əhəmiyyətə malikdir.

Beynəlxalq poeziya günü ilə əlaqədar keçirilən tədbirlər Respublika Uşaq Kitabxanasında da uğurla davam etdirilir. Beləki, hər il bu sahədə keçirilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Məhz bu yönümdə keçirilən tədbirlərin nəticəsidir ki, Respublika Uşaq Kitabxanasına gələn oxucuların sayı gündən-günə artır, uşaqların poeziyaya, şeirə olan sevgiləri daha da özünü göstərir. Respublikamızın hər bir yerində təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda bir sözlə mədəniyyət ocaqlarında göstərilən diqqət və qaygının müqabilində şair və yazıçılarımız çalışırlar ki, yeni dövrün ruhuna uyğun, yüksək bədii dəyərə malik ədəbi nümunələr yaratsınlar. Ölkəmizin sürətli inkişafı və müasirliyini ədəbiyyata, şeirə-sənətə gətirmək qarşıda duran əsas vəzifələrdən biridir. Çünki ədəbiyyat bütün dövrlərdə həyatın güzgüsü, milli varlığımızın əsas rəmzlərindən biri olub. Bu missiya müasir dövrdə də aktuallığını qoruyub saxlayır.

Elə bu missiyanın davamı olaraq Respublika Uşaq Kitabxanası bir sıra tədbirlər planı hazırlayib. Tədbirlər planının geniş və maraqlı olması üçün ən əvvəl kitabxanada poeziya günü ilə əlaqədar sərgi hazırlanır. Sərgidə poeziya günü ilə əlaqədar sitatlardan, şairlərimizin şeirlərindən nümunələr, dövrü mətbuatda çap olunmuş kartotekalardan istifadə etmək olar. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər: Məsələn, "Müasir Azərbaycan poeziyası bu gün", "Poeziya məktəbinin görkəmli nümayəndələri", Beynəlxalq poeziya günü" , "Bənzərsiz poeziya" və s.

**Sərginin nümunəsini veririk.**

**Başlıq: "Beynəlxalq poeziya günü"**



1. Beynəlxalq poeziya günü ilə əlaqədar kitab sərgisi.
2. Azərbaycan poeziya nümayəndələrinin kitablarının nümayişi.
3. Beynəlxalq poeziya nümayəndələrinin kitablarının nümayişi.
4. Poeziya günü ilə əlaqədar dövrü mətbuatda çap olunmuş qəzet və jurnal materiallarının kartotekası.
5. Poeziya günü ilə əlaqədar sitatlar.

W. Somerset Maugham : Ədəbiyyatın tacı poeziyadır.
2. Robert Frost: Emosiya öz fikrini tapanda, fikir isə sözləri tapanda poeziya yaranır.
3. Octavio Paz : Şeir oxumaq onu gözlərinlə eşitməyə bənzər; şeiri eşitmək onu qulaqlarla görmək deməkdir.
4. Plutarch: Şəkil çəkmək səssiz poeziyadı, poeziya isə danışan şəkildir.
5. Percy Bysshe Shelley: Şair qaranlıqda oturub şirin sözlərlə təkliyini sevindirmək üçün nəğmə oxuyan bir bülbüldür.
6. Emily Dickinson: Əgər bir kitab oxuyuramsa və o kitab mənim bədənimi heç bir ocağın isidə bilməyəcəyi dərəcədə soyudursa bu, onda həmin kiitabdakıların poeziya olduğunu bilirəm.
7. Thomas Gray: Poeziya nəfəs alan fikirlər və yanan sözlərdir.
8. Carl Sandburg: Poeziya kölgədən rəqs etməyi xahiş edən əks-sədadır.
9. Jean Cocteau: Şair həmişə həqiqəti deyən bir yalançıdır.
10. Plato : Poeziya həqiqətə tarixdən daha yaxındır.
11. Wallace Stevens: Kişi qadına necə baxırsa poeziya da dünyaya elə baxır.
12. Robert Browning: Allah ən kamil şairdir.
13. Jean Cocteau: Şair kəşf etmir, o qulaq asır.
14. Paul Muldoon: Robert Frostun şeirindən sonra heç kim tozağacına əvvəlki ki mi baxmayacaq.
15. Anne Stevenson: Hər bir sözün öz çəkisi var, ona görə də mənim şeirlərimi çox sakitcə oxumalısınız.
16. Robert Louis Stevenson: Şərab butulkalarda saxlanan poeziyadır.
17. Virginia Woolf: Poeziya gözəldir. Ən gözəl nəsr də poeziya ilə dolu olandır.
18. Marilyn Monroe: Mən poeziyanı vaxtı xilas etmək üçün oxuyuram.
19 . A. P. J. Abdul Kalam: Poeziya ya xoşbəxtliyin zirvəsindən, ya da kədərin dərinliyindən yaranır.
20. John Dryden: Rəqs ayaqların poeziyasıdır.
21. Honore de Balzac: Sevgi hisslərin poeziyasıdır.
22. Robert Frost: Poeziya həyatı boğazla götürmək yoludur.
23. Robert Frost: Poeziya kədər haqqındadır. Siyasət isə inciklikdən bəhs edir.

24. Lord Byron:Ulduzlar göylərin poeziyasıdır.
25Beverley Nichols: Evlilik ilk fəsilləri poeziya ilə, qalan fəsilləri nəsrlə yazılmış bir kitabdır.
26 . Mahmoud Darwish: Mənə görə poeziya mənəvi dərmandır.
27. William Rose Benet: Şeir yazanlar həyatın zəhərli dodaqlarından bal çəkənlərdir.
28. Gwendolyn Brooks: Poeziya distillə edilmiş həyatdır.
29. Eugenio Montale: Mən poeziyanı axtarmıram. Mən poeziyanın mənə baş çəkməsini gözləyirəm.
30. Paul Valery: Poeziya heç vaxt sona çatmır, o tərk edilir.

**“Beynəlxalq poeziya günü” ilə əlaqədar**

**Kitab sərgisi**







Az2
M97
MƏKTƏB KİTABXANASI
Mikayıl MÜŞFİQ
Könlümü
al,
oxu!
Şerlər, poemalar


BƏXTİYAR
VAHABZADƏ
BİR
ÖMÜR YUXU


Bəxtiyar Vahabzadə
Az2
V15
BİR SALAMA
DƏYMƏDİ


MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI
MİKAYIL
MÜŞFİQ
Seçilmiş
əsərləri













Bugünkü Azərbaycan poeziyasının keyfiyyətcə hansı səviyyədə olmasının məsuliyyətini birinci növbədə böyük yaradıcılıq təsrübəsinə malik şair və yazıçılarımız daşıyır. Dünyada böyük, öz sözünü deyən şair və yazıçılarımız çoxdur. Nizami, Dante, Xəyyam, Füzuli, Puşkin, Sabir, Yesenin, Müşfiq, Rəsul Rza, Məmməd Araz və s. Bunlar hamısı möhtəşəm poeziya zirvələridir. Lakin elə şair və yazıçılar da var ki, onların poeziyası olmadan sənət dünyasını təsəvvür etmək belə mümkün deyil. Günümüzün ağrı və acılarını, faciələrini, qəhrəmanlıqlarını öz çiyinlərində daşıyan bir çox şair və yazıçılarımızı

Beynəlxalq Poeziya günü ilə əlaqədar keçirilən tədbirdə yada salmaq yerinə düşərdi. Beləki, "Sənətkarlar və poeziya " adlı tədbirdə bir çox şair və yazıçılarımızın poeziyasına nəzər salacağıq. Ən əvvəl XX əsr Azərbaycan poeziyasına müraciət edək.



XX əsrdən sonrakı əsrlərə boylanan, poeziyası zamanlara sığmayan şair Rəsul Rza …Rəsul Rza Azərbaycan ədəbiyyatının inkişafında öz dəsti-xətti olan görkəmli sənətkarlardan biridir. Onun bir-birindən maraqlı, bədii cəhətdən qüvvətli, sənətkarlıqla yazılmış əsərləri xalqımızın ən böyük mənəvi sərvəti olan söz xəzinəmizi zənginləşdirən qiymətli sənət nümunələridir.

Xəyalın yanımda, sən uzaqdasan,

Hicranın yolları ömür qədərdir.

Bu yalqız axşamda yuvama baxsan,

Mənəm, xəyalındır, bir də kədərdir.

***

Bir sən ol, bir də mən, bir də dərdimiz,

Ağlayaq, doyunca, gülək doyunca.

Baş-başa qaldıqca bu möhlətlə biz

Döysün qapıları külək doyunca.

***

Döysün qoy açmayaq. Yorulsun külək,

Qəmli hicran qalsın qapıda dustaq!

Bir an vüsalınla çırpınsın ürək,

Sonra... sonra yenə biz ayrılmayaq!

Azərbaycan poeziyası böyük bir dövrü əhatə edir. Yuxarida qeyd etdiyimiz kimi onu yaradan böyük sənət adamları var. Klassik poeziyamızın ən yaxşı, mütərəqqi ənənələri üzərində yaranan, inkişaf edən poeziyamız bu gün də inkişafdadır. Hər dövrün öz poetik irsi var, mövzu, ideya məzmunu etibarilə son dərəcə geniş, əhatəli olan poeziya forma, yanr, bədii söz sənətkarlığı, poetik dil və üslub cəhətdən də həmişə yeni və orijinal xüsusiyyətləri ilə seçilmiş, sevilmişdir.

Əlvanlıq və orijinallıq təkcə poeziyanın əsas aparıcı xüsusiyyəti olaraq qalmayıb, eyni zamanda klassik ədəbi proseslə müasir ədəbi prosesin qırılmaz tellərlə bağlılığına da xidmət edib.

XX əsr Azərbaycan poeziyasının mövzu dairəsi geniş və əlvandır. Bu dövr böyük sənətkarları yetişdirən dövrdür. M. Müşfiq, H. Cavid, Ə. Cavad, A. İldırım, S.Vurgun, S. Rüstəm, R. Rza, O. Sarıvəlli, M. Rahim... bu böyük sənətkarlar XX əsr Azərbaycan klassik poeziyasinin yeni nəslidir.

İndi isə gəlin, Azərbaycan ədəbiyyatının parlaq nümayəndələrindən biri Mikayıl Müşfiq poeziyasına müraciət edək.

Mikayıl Müşfiqi bütün nəsillərə sevdirən və adını yaşar edən onun ürəkdən gələn səmimiyyət dolu poeziyasının xalq ruhu ilə bağlılığı, dogma Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm etməsi, qəlbləri ehtizaza gətirməsidir. Şairin gözəl hiss, axıcılıq və məna zərifliyi ilə zəngin, dil-dodağa yatan, tez də yadda qalan şeirlərinin çoxu nəğmədən seçilmir.Müşfiq ədəbiyyat tariximizdə də, xalqımızın yaddaşında da, hamımızın qəlbində də otuz yaşlı çılğın, romantiq, xəyallar dünyasında qanadlanan bir gənc kimi qalacaq. Ömrümüzün hər çagında alovlu şairin büllur kimi saf, axıcı misralarını xatırlayacaq, nəğmələrini dinləyəcəyik, amma içəri dünyamızda daima onun tükürpədici harayını da eşidəcəyik…



Mikayıl Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdən gəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığı, Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm edib sevdirməsi, vətəndaşlığı, cazibə qüvvəsilə oxucuların qəlbini ehtizaza gətirməsidir. Səmimiyyətlə dolu poeziyası barədə şair özü müasirlərinə müraciətlə yazıb:

Yazmaram ürəyim sizi anmasa,

Sizin eşqinizlə alovlanmasa;

Burdaca el durub məndən sordu ki:

Gözdən yaş çıxarmı ürək yanmasa?

Qönçə açılarmı, bahar olmasa?

Şölə titrəyərmi, rüzgar olmasa?

Bu nəğmə ruhumdan qoparmı bilməm,

Mənə ilham verən dostlar olmasa?

Müğənni Eyub Yaqubovun ifasında, sözləri şair Mikayıl Müşfiqə aid olan "Ana" mahnısının sədaları altında iki oxucu səhnəyə daxil olur.

I Oxucu:

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Ana, ana!.. bu kəlmənin vurğunuyam əzəldən.
Onu gözəl anlatamaz düşündüyüm satırlar.
Ana olmaz bizə hər bir "yavrum" deyən gözəldən,
Çünki onun xilqətində ayrıca bir füsun var.

Başqa aləm yaşamadım böylə gözəl biçimdə,
Onu kimsə gözəlliyin çilvəsində yaratmış;
Ana, ana…çiçəkli bir fidandır ki, içimdə
Ta əzəldən kök salaraq, ürəyimdə boy atmış.

O fidanı bəzi vaqit istiyorum çəkərək,
Qoparayım ürəyimdən, fəqət onda varlığım
Sizildarkən, sanki bir səs qopub incə və titrək
Bir lisanla söylüyor ki:_Mənə dəymə, yazığım!

II Oxucu:

Çünki səni mən bəslədim, mən böyütdüm, oxşadım,
Söylədiyin sözlər ki var beşiyinin üstündə

Oxuduğum türkülərin kölgəsidir, övladım!

Mənə məxsus vərəqlər var hər kitabda, hər dində.

Nə doğru söz yazıqlar ki, görməmişəm onu mən,

Diyorlar ki, Müşfiq, xəstə bir tifildin, ananı

Baban kimi soyuq əllər qucağına çəkərkən,

Yalnız acı fəğanların titrədirdi hər yanı.

İndi mənə hər kəs:-Anan, baban varmı? söyləsə,

Diyorum ki, qapılmadan bir xülyaya, bir hissə

Olan olmuş, keçən keçmiş, indi məni yaşadan

Bir müqəddəs, bir səmimi əməlim var, tapdığım.

İnandığım bir qiblə var, o da hər gün, hər zaman

Yorulmayan qollarımla, düşünərək yapdığım

Bir aləmdir, bir aləm ki, səmaları qıpqızıl,

Yüksəkləri, alçaqları, fəzaları qıpqızıl!

Müasir Azərbaycan poeziyası haqqında danışarkən ilk növbədə Nəriman Həsənzadə yada düşür. Əsrimizin ikinci yarısının social-estetik problemlərini yaradıcılığında bütün miqyası ilə əks etdirən Nəriman Həsənzadə böyük Səməd Vurğundan sonrakı dövrün ən gözəl şairidir. Şairlik Nəriman Həsənzadənin stixiyasıdır o, təkcə şeirində, nəşrində, dramaturgiyasında, publisistikasında deyil, adi məişətində də şairdir, yazanda da, yazmayanda da şairdir…



Aparıcı Nəriman Həsənzadənin “Düz deyir Könül “ adlı şeirini söyləyir.

Elə bil mən səndən uzaqlaşıram,
Qulaq as, gör sənə nə deyir könül.
Yaş ötür mən amma uzaqlaşıram,
Bir ana qucağı istəyir könül.

Sinəmə sığışmır bəzən təlaşım,
Sən de, necə susum, necə danışım?!
Susmaq istəyirəm, din deyir yaşım,
Dinmək istəyirəm, sus deyir könül.

Namərd aramıza girmək istədi,
Unudub hörməti, eşqi, izzəti.
Mən yaşaram dedim, könül yox, dedi,
Mən yalan demişəm, düz deyir könül.

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndərindən biri də respublikamızın xalq şairi Məmməd Arazdır. Məmməd Arazın keşməkeşli və şərəfli ömür yolu, ibrətamiz və bəşəri əhəmiyyətə malik yaradıcılığı sənəti ilə şəxsiyyəti vəhdət təşkil edən bir insanın həyatına canlı nümunədir.

İndi isə xalq şairi Məmməd Arazın bir sənətkar kimi poeziyada keçdiyi inkişaf yolundan söhbət açacağıq.



Məni şeirimdə gəz bir insan kmi,

Qəlbimdə nə varsa ona demişəm.

Anadan-bacıdan gizlətdiyimi

Kağızdan-qələmdən gizlətməmişəm.

Azərbaycanımızın görkəmli xalq şairi Məmməd Araz mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşadı. Öz yaradıcılığının əsas qəhrəmanı, aparıcı siması olan, düşündüklərini, yaşadıqlarını yazan Məmməd Arazın əsərləri həqiqi bir şair ömrünün mənalı və pozulmaz səhifələridir. Bir çox istedadlı şairlər kimi, Məmməd Arazın əsərləri də onun ibrətamiz həyat dastanı, mənalı ömürnaməsidir. Xalq şairi Məmməd Araz poeziyasında Vətən ata ocağı, dogma yurd, el-oba, Kür-Araz deməkdir.

Azərbaycan qayalarda bitən bir çiçək,

Azərbaycan çiçəklərin içində qaya.

Mənim könlüm bu torpağı vəsf eləyərək,

Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan mayası nur, qayəsi nur ki…

Hər daşından alov dilli ox ola bilər,

Azərbaycan deyiləndə ayağa dur ki,

Ana yurdun ürəyinə toxuna bilər.

Min illərlə zülmətlərə yollar aşıbdı,

Dalğalandı Sabirlərin ümman dünyası.

Azərbaycan qatarı da yollara çıxdı,

Dalğalandı Qoca Şərqin duman dünyası.

Poeziya , şeir sənəti barədə mühakimə yürüdərkən, biz tez-tez "poeziyanın sehri", "poeziyanın sirri", "poeziyanın musiqisi" kimi ifadələrini işlədir, adətən anlaşılması asan olmayan, predmeti dəqiq müəyyənləşməyən qeyri-adi məfhumları, duyğuları açmağa çalışırıq. Poeziyanın meyarı hər şeydən əvvəl sənətkarın yetkinlik meyarıdır, onun kollektiv təcrübəmizlə həmahəng olan fəlsəfi və mənəvi müdrikliyinin meyarıdır və bundan sonra şəxsiyyətin harmoniyası, epitetlərin gözəlliyi və daha sonra dövrün əsən yellərinə istedad yelkəni ilə sinə gərmək bacarığı gəlir. Dövrlər dəyişir, ömür keçir, lakin həqiqi sənət, dünyanı bizim üçün əbədi, həmişəyaşar varlığa çevirir. Əlbəttə, söhbət insandan bütün əsrlərdə insan olmaq eşqi ilə yanmaqdan gedir.

Bəli, Azərbaycan poeziyasında öz möhtəşəm poeziya məbədi ucaltmaq bir çox şair və yazıçılarımız kimi xalq şairi Bəxtiyar Vahabzadənin də qismətinə düşüb. Bu məbədi ucaldan əllər mahir və qadir əllərdir. Bu əllərin qoyduğu özül möhkəm və gözəldir. Oxucular bu məbədi tez-tez ziyarət etməlidirlər.

**"Yaradıbdır inam məni, mən inamın övladıyam..."** adlı tədbiri kitabxanaçı açıq elan edir. Tədbirdə bir çox tanınmış şair və yazıçılar iştirak edir. Kitabxanaçı Xalq şairi Bəxtiyar Vahabzadənin ömür yolu haqqında bir qədər məlumat verir.



Bəxtiyar Vahabzadə bizim əsrdə Azərbaycan xalqının yetirmiş olduğu ən böyük şəxsiyyətlərdən biridir. B.Vahabzadənin şairliyi də, filosofluğu da, ictimai xadimliyi də mənsub olduğu xalqa məxsusdur. B. Vahabzadə məktəbi, millətçilik məktəbi yox, millətsevərlər məktəbidir. B. Vahabzadə nə qədər böyük məhrumiyyətlərə məruz qalsa da, o, millətə xidmət etmək vəsifəsini həmişə şərəflə yerinə yetirmiş, milli ideyalardan dönməmiş, milli həqiqəti söyləmişdir.

B. Vahabzadə nə qədər böyük şöhrətə çatsa da vətənə, doğulduğu torpağa məhəbbətini hec zaman itirməyib.

Bəxtiyar Vahabzadə təkcə ayrı-ayrı adamların deyil, bütövlükdə Azərbaycan millətinin böyük sayqısını qazanıb. Yaradıcılığa başladığı dövrdən bu günə qədər B. Vahabzadə eyni məhsuldarlıqla yazıb yaratmışdır. O, bu dünyaya şair kimi gəlmişdir. B. Vahabzadənin yaradıcılığı həmişə ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilib. Onun şeirləri, poemaları ümumxalq məhəbbəti qazanıb. Bəxtiyar Vahabzadə poeziyasının çeşməsi tükənməzdir, qaynardır, xalqın arzu və istəkləri, fikir və düşüncələri ilə həmahəngdir.

Əziz qonaqlar və tədbir iştirakçıları! İndi isə oxucuların ifasında B. Vahabzadənin "Bir salama dəymədi " adlı şeirini dinləyək.

I Oxucu: Bir gün səni gördüm,

Salam vermək istədim,

Üzünü yana tutdun.

Söylə, illərdən bəri

Qəlbimizin bir duyub

Bir duyduğu illəri,

Axı, nə tez unutdun?

Beş ildə gözümüzdən axan o qanlı sellər,

Bir salama dəymədi?

Heç üzümə baxmadan yanımdan necə keçdin?

Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?

O qədər yaxın ikən, bu qədər uzaq oldun.

Şirin gülüşlərimiz, acı fəğanlarımız

bir salama dəymədi?

Qayğılı anlarımız, qayğısız anlarımız

bir salama dəymədi?

Sən neylədin bir düşün!

Yalnız indi anladım: ah, sən daha mənimçin

əlcatmaz bir çiçəksən,

II Oxucu: Yaşanmış günlərimtək geri dönməyəcək!...

Qop, ey tufan, əs, ey yel! Xəzər olum, tökülüm

Düz beş il ürəyimdə

Bəslədiyim məhəbbət, bir salama dəymədi

Bir günlük həsrətimə dözə bilməyən gülüm,

Bəs nə oldu? Bu həsrət bir salama dəymədi?

Getdin, dalınca baxdım, can ayrıldı canımdan,

Sən necə etinasız ötə bildin yanımdan?

Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,

Sənin qəlbin əsmədi.

Geriyə də baxmadın!

Niyə sənin yolunu məhəbbətin kəsmədi?..

Qacancımız de, bumu?

Deyilməmiş o salam əlvidamız oldumu?

Sən mənə zülm eylədin, mənə zülm yaraşır,

Bir salama dəyməyən eşqə ölüm yaraşır!

Xalqımız şeriyyətə və mədəniyyətə misilsiz töhvələr, nadir söz ustadları, böyük sənətkarlar bəxş edib. Odur ki, Azərbaycanın ürəyi həm də şeirlə, poeziya ilə bərabər döyünüb. Müasir dövrümüzün ustadlarından biri kimi hörmətlə yad olunan Məmməd Araz demişkən:

Azərbaycan - mayası nur, qayəsi nur ki...

Hər daşından alov kimi ox ola bilər.

"Azərbaycan!" deyiləndə ayağa dur ki,

Füzulinin ürəyinə toxuna bilər...

**S O N**

## ƏDƏBİYYAT SİYAHISI:

İnternetdə: www.google.az

1. M.Araz. Albom-monoqrafiya.-Bakı.:Azərbaycan nəşriyyatı, 1999.-160 s.
2. Vahabzadə B. Seçilmiş əsərləri.- Bakı.: “Öndər nəşriyyatı”, 2004.-328 s.
3. Vahabzadə B. “Bir salama dəymədi”.- Bakı.: “Araz” nəşriyyatı, 2005.-270 s.
4. Vahabzadə B. Bir ömür yuxu.- Bakı.: Azərbaycan nəşriyyatı, 1998.-189 s.
5. G. Pənah. Sənətkar və Poeziya.-Bakı.: Sabah nəşriyyatı, 2010.-321 s.
6. Həsənzadə. N. Gəlimli-gedimli dünya.- Bakı.: Şərq-Qərb, 1994.-316 s.
7. M. Müşfiq. Seçilmiş əsərləri.- Bakı.:Şərq-Qərb, 2004.-352 s.
8. M. Müşfiq. Seçilmiş əsərləri.-Bakı.: Avrasiya Press, 2008.-241s.

Redaktor: Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

Tərtibçi: Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı

Korrektor: Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri